

# «Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. dörd ay müddətində:

1.4.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.2. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, tikinti layihələrini ekspertizadan keçirən ekspertiza müəssisələrinin yanlış rəyi nəticəsində tikinti obyektinə dəymiş ziyana görə mülki və inzibati məsuliyyət müəyyən edən qanun layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.3. dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.4. həmin Məcəllənin 90.4-cü maddəsinə uyğun olaraq, tikinti layihələrinin ekspertizadan keçirilməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.5. həmin Məcəllənin 92.10-cu maddəsinə uyğun olaraq, tikinti işlərinin dayandırılması qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.6. həmin Məcəllənin 95.7-ci maddəsinə uyğun olaraq, tikinti obyektlərinin sökülməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.7. həmin Məcəllənin 97.5-ci maddəsinə uyğun olaraq, tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. həmin Məcəllənin 47.4.3-cü və 95.1.1-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.6. beş ay müddətində:

1.6.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, müfəssəl plan olmadığı və ya onun müddəti bitdiyi hallarda tikintiyə icazə verilməsi və ya məlumatlandırma icraatı məqsədləri üçün tikinti layihələrinin onların həyata keçiriləcəkləri ərazinin planlaşdırılması sənədlərinə (baş planlara və (və ya) ümumi planlara), habelə müfəssəl planın hazırlanması zamanı nəzərə alınan tələblərə uyğunluğunun müəyyənləşdirilməsi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq təsdiq etsin;

1.6.2. həmin Məcəllənin 16.2-ci maddəsinə uyğun olaraq, şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin təşkili və fəaliyyəti qaydasını, eləcə də sistemə daxil edilən məlumatların tərkibini, həmin məlumatların təqdim edilməsi və işlənilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.3. həmin Məcəllənin 20.2-ci maddəsinin üçüncü cümləsinə uyğun olaraq, qonşu ərazi vahidlərinin ərazi planlaşdırılması sənədlərini bir-birilə razılaşdırma qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.4. həmin Məcəllənin 22.7-ci maddəsinə uyğun olaraq, ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.5. həmin Məcəllənin 30.3-cü maddəsinə uyğun olaraq, ərazi planlaşdırılması ilə bağlı ictimai müzakirələrin təşkili və keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.6. həmin Məcəllənin 32.3-cü maddəsinə uyğun olaraq, ümumi və baş planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.7. həmin Məcəllənin 33.3-cü maddəsinin üçüncü cümləsinə uyğun olaraq, monitorinqin predmetini və həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.8. həmin Məcəllənin 34.3-cü maddəsinə uyğun olaraq, müfəssəl planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydalarını, habelə həmin planların razılaşdırıldığı orqanların siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.9. həmin Məcəllənin 52.3-cü maddəsinə uyğun olaraq, peşəkarlıq sertifikatlarının verilməsi və ya ləğv edilməsi qaydalarını, habelə sertifikatlaşdırılmalı peşələrin siyahısını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.10. həmin Məcəllənin 55.1-ci maddəsinə uyğun olaraq, tikinti materiallarının və məmulatının standartlara uyğunluğunun yoxlanılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.11. həmin Məcəllənin 55.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, akkreditasiya qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.12. həmin Məcəllənin 57.3-cü maddəsinə uyğun olaraq, Məcəllənin 57.2.5-57.2.6-cı maddələrində nəzərdə tutulmuş tələblərlə bağlı qaydaları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.13. həmin Məcəllənin 58.4-cü maddəsinə uyğun olaraq, mühəndis-axtarış işlərinin yerinə yetirilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.14. həmin Məcəllənin 60.1-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş tələblərlə bağlı qaydaları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.15. həmin Məcəllənin 63.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, tikinti obyektlərinin mühəndis-kommunikasiya təminatı qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.16. həmin Məcəllənin 67.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, təhlükə potensiallı təbiət və texnogen xarakterli hadisələrin baş

vermə ehtimalının yüksək olduğu zonalarda mühafizə tədbirlərinin növləri və onların tətbiqi hallarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.17. həmin Məcəllənin 69.8-ci maddəsinə uyğun olaraq, ara məsafəsi ilə bağlı müfəssəl qaydaları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.18. həmin Məcəllənin 75.6-cı maddəsinin ikinci cümləsinə uyğun olaraq, tikintiyə icazədə nəzərdə tutulan əlavə şərtlərin siyahısını və onların tətbiqi hallarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.19. həmin Məcəllənin 77.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı halları Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.20. həmin Məcəllənin 78.1-ci maddəsinə uyğun olaraq, təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin tikintisinə icazə ilə bağlı əlavə tələbləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.21. həmin Məcəllənin 78.2-ci maddəsinə uyğun olaraq, təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq təsdiq etsin;

1.6.22. həmin Məcəllənin 83.0.5-ci maddəsinə uyğun olaraq, tikinti layihəsinin texnologiya bölməsinin hazırlanması tələb olunan halları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.23. həmin Məcəllənin 98.3-cü maddəsinə uyğun olaraq, texniki nəzarətin həyata keçirilməsinin tələb olunmadığı tikinti obyektlərinin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.24. həmin Məcəllənin 101.4-cü maddəsinə uyğun olaraq, tikinti obyektinin istismarına icazənin vahid formasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.25. həmin Məcəllənin 102.8-ci maddəsinə uyğun olaraq, tikinti sənədlərinin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.26. həmin Məcəllənin 104.4-cü maddəsinə uyğun olaraq, Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibini, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.7. altı ay müddətində:

1.7.1. tikinti fəaliyyətinin ətraf mühitə təsirinin qiymətləndirilməsinə dair qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7.2. «İcbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda tikinti fəaliyyəti subyektlərinin peşə məsuliyyətinin icbari sığortası ilə bağlı dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7.3. «Memarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun yeni layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7.4. şəhərsalma kadastrının yaradılması və aparılması qaydaları ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7.5. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 15-ci maddəsində nəzərdə tutulmuş şəhərsalma və tikintiyə dair normativ sənədlər sisteminin konsepsiyası barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.8. «Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların «Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi üç ay müddətində:

3.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 59.1-ci maddəsinə uyğun olaraq, tikinti obyektinin sahəsinin və həcminin hesablanması qaydalarını müəyyən etsin;

3.2. həmin Məcəllənin 73.1-ci maddəsində nəzərdə tutulmuş halları müəyyən etsin.

4. Müəyyən edilsin ki:

4.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 47.3-cü, 90.4-cü, 92.10-cu, 95.7-ci, 97.5-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

4.2. həmin Məcəllənin 16.2-ci maddəsində, 20.2-ci maddəsinin üçüncü cümləsində, 22.7-ci, 30.3-cü, 32.2-ci, 32.3-cü, 33.1-ci maddələrində, 33.3-cü maddəsinin üçüncü cümləsində, 34.3-cü maddəsində, 35.1-ci maddəsinin ikinci

cümləsində, 52.3-cü, 55.1-ci maddələrində, 55.2-ci maddəsinin ikinci cümləsində, 57.3-cü, 58.4-cü maddələrində, 60.1-ci maddəsinin üçüncü cümləsində, 63.1-ci maddəsinin ikinci cümləsində, 67.4-cü maddəsinin ikinci cümləsində, 69.8-ci maddəsində, 75.6-cı maddəsinin ikinci cümləsində, 77.2-ci maddəsinin ikinci cümləsində, 78.1-ci, 78.2-ci, 83.0.5-ci, 98.3-cü, 101.4-cü, 102.8-ci, 104.4-cü maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

4.3. həmin Məcəllənin 4.3-cü, 5.2-ci, 48.3.1-ci maddələrində, 66.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

4.4. həmin Məcəllənin 13-cü maddəsində, 20.4-cü maddəsinin ikinci cümləsində, 24.1-ci maddəsində və 24.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini ümumi və baş planlara münasibətdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, müfəssəl planlara münasibətdə isə yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

4.5. həmin Məcəllənin 14.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər;

4.6. həmin Məcəllənin 32.4-cü maddəsində, 33.3-cü maddəsinin birinci cümləsində, 34.2-ci, 44.1-ci maddələrində, 58.2-ci maddəsinin ikinci cümləsində, 59.1-ci, 73.1-ci, 104.2-ci maddələrində, 104.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirir;

4.7. həmin Məcəllənin 34.4-cü maddəsinin birinci cümləsində, 35.1-ci maddəsinin birinci və üçüncü cümlələrində, 35.3-cü maddəsində, 38-ci maddəsində, 40-cı maddəsinin ikinci cümləsində, 41-ci maddəsində, 42.1-ci maddəsinin birinci cümləsində, 43.1-ci maddəsinin birinci cümləsində, 43.2-ci maddəsinin birinci cümləsində, 43.3-cü, 44.3-cü, 47.4.5-ci, 47.4.6-cı, 48.3.3-cü maddələrində, 75.1-ci maddəsinin birinci cümləsində, 75.2-ci maddəsinin birinci cümləsində, 75.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 75.4-cü maddəsinin birinci (hər iki halda) və üçüncü cümlələrində, 75.5-ci maddəsində, 75.6-cı maddəsinin birinci cümləsində, 75.9-cu maddəsinin birinci cümləsində, 75.10-cu maddəsinin birinci cümləsində, 76.1-ci, 76.2-ci maddələrində, 80.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 81.1-ci maddəsinin ikinci cümləsində, 82.1-ci (birinci halda), 82.2-ci (birinci halda) maddələrində, 84.1-ci maddəsinin birinci cümləsində, 84.2-ci maddəsinin birinci cümləsində, 86.1.1-ci maddəsində, 86.3-cü maddəsinin birinci cümləsində, 89.2-ci maddəsində, 90.1-ci maddəsinin ikinci cümləsində, 90.3-cü maddəsində, 93.1-ci maddəsinin birinci cümləsində, 94.3-cü, 101.2-ci maddələrində, 102.2-ci maddəsinin birinci cümləsində, 102.3-cü maddəsinin birinci və üçüncü cümlələrində, 102.4-cü, 102.5-ci, 102.6-cı maddələrində, 102.7-ci maddəsinin birinci cümləsində, 103.2-ci maddəsinin birinci cümləsində nəzərdə

tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

4.8. həmin Məcəllənin 48.3.5-ci maddəsinin ikinci cümləsində, 65.3-cü maddəsində, 67.4-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

4.9. həmin Məcəllənin 49.2.11-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

4.10. həmin Məcəllənin 53.2-ci maddəsində, 53.3-cü maddəsinin birinci cümləsində, 54.4-cü maddəsinin birinci və üçüncü cümlələrində, 54.5-ci maddəsində, 55.3-cü maddəsinin üçüncü cümləsində, 80.5-ci, 82.1-ci (ikinci halda), 82.2-ci (ikinci halda), 92.1-ci maddələrində, 92.3-cü maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 92.4-cü maddəsində, 92.5-ci maddəsinin birinci cümləsində, 92.8-ci maddəsinin birinci (hər iki halda), ikinci, dördüncü, beşinci və altıncı cümlələrində, 93.1-ci maddəsinin ikinci cümləsində, 94.2-ci maddəsində, 95.2-ci maddəsinin birinci cümləsində, 95.3-cü, 95.5-ci maddələrində, 97.2-ci maddəsinin birinci cümləsində, 97.3-cü, 97.4-cü maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir;

4.11. həmin Məcəllənin 80.4-cü maddəsinə əsasən məlumatlandırma icraatı qaydasında yaşayış evinin layihəsinin memarlıq-planlaşdırma bölməsinin uyğunluğunun yoxlanılması zamanı yaşayış evlərinin elektrik, rabitə, nəqliyyat, qaz, su, kanalizasiya və digər kommunikasiya xətlərinin mühafizə zolağında tikintisinin yolverilməzliyi, habelə uyğunluğun yoxlanılması zamanı müvafiq tikinti ərazisində mövcud olan mühəndis-kommunikasiya xətləri və onların mühafizə zolağı barədə sifarişçiyə yazılı məlumat verilməsi yerli icra hakimiyyəti orqanları tərəfindən təmin edilir.

5. Bu Fərmana əsasən Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən edilən normativ hüquqi aktlarda dəyişikliklər yalnız Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırıldıqdan sonra edilə bilər.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 4 sentyabr 2012-ci il***

***№ 695***

***«Respublika» qəzetində dərc edilmişdir (7 sentyabr 2012-ci il, № 199)***
***(«VneshExpertService» LLC).***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (15 sentyabr 2012-ci il, № 206) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir ( 30 sentyabr
2012-ci il, № 9, maddə 847) («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*